UOT 316.6
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.328

# KİMSƏSİZ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARIN SOSİAL TƏHLÜKƏSİZLİYİNİN XÜSUSİYYƏTLƏRİ

**NİGAR KƏRİMOVA**
*Azərbaycan Universiteti, dissertant*
*E-mail: kerimovanigar2022@gmail.com*

## Giriş

Sosial təhlükəsizlik, cəmiyyətin və dövlətin həyatında əhəmiyyətli bir sahədir. Tarixin hər dövründə insan özünü təhlükələrdən qorumağa ehtiyac duymuşdur. Erkən cəmiyyətlər müharibələr, təbii fəlakətlər və ya xəstəlik kimi vəziyyətlərdə fərdləri qorumaq üçün müxtəlif qarşılıqlı yardım sistemləri inkişaf etdirdilər. Zaman keçdikcə bu sistemlər mürəkkəbləşdi və dövlətlər sosial təminat proqramları vasitəsilə vətəndaşlarının ehtiyaclarını ödəmək üçün strukturlar qurdular.

Sosial elmlərin bütün sahələrində olduğu kimi, sosial təhlükəsizlik sahəsində də hər kəs tərəfindən qəbul edilən vahid tərif yoxdur. Müxtəlif ölkələrdə, mədəniyyətlərdə və sosial kontekstlərdə fərqli olan sosial təminat sistemləri bu sahədə tərifləri şaxələndirir. Bu səbəbdən sosial təhlükəsizliyə bir çox təriflər verilmişdir. Bir fikrə görə, "Sosial təminat, gəlirlərindən asılı olmayaraq fərdlərin müəyyən sosial risklərə qarşı iqtisadi təhlükəsizliyini təmin etmək məqsədi daşıyan qurum və qurumlar qrupudur" [20, s.5]. Başqa bir fikrə görə, "Bir ölkənin xalqının bu gününü və gələcəyini təmin etməyi hədəfləyən və bir-biri ilə sıx birlik və harmoniyanın qurulduğu bir qurumdur". Başqa sözlə, sosial təminat peşə, fizioloji və ya sosial-iqtisadi risklərə görə gəlirləri və ya qazancları daimi və ya müvəqqəti məhdudlaşdırılan insanların yaşayış və məişət ehtiyaclarını təmin edən sistemdir [19, s.323]. Bu çərçivədə "Sosial təminat gəlirindən asılı olmayaraq ölkədə yaşayan hər kəsi cəmiyyətin əmin-amanlığını və rifahını pozan müəyyən sayda sosial təhlükələrin vurduğu zərərlərdən "insan hüququ" və mahiyyətcə "dövlət" tərəfindən dəstəklənən ödənişli və ya ödənişsiz rejimlərin istifadəsini nəzərdə tutan sistemdir [21, s.22]. Digər fikrə görə, "Sosial təminat insanların müəyyən sosial risklərin iqtisadi nəticələrinə, başqa sözlə desək, onların gətirə biləcəyi gəlir itkiləri və xərc artımlarına qarşı təhlükəsizliyin təmin edilməsidir" [7, s.10]. Bu tərifləri daha da artırmaq mümkündür .

## Sosial təhlükəsizlik sistemlərinin tarixi inkişafı

Sosial təhlükəsizliyin tarixi inkişafı cəmiyyətlərin dəyişən dinamikasından və iqtisadi şəraitdən asılı olaraq inkişaf etmişdir. Sənayedən əvvəlki cəmiyyətlərdə sosial təhlükəsizlik sosial həmrəylik və əməkdaşlığa əsaslanırdı. Ailələr, qonşular və yerli icmalar çətin anlarda bir-birinə dəstək olmaqda mühüm rol oynayıblar. Korporasiyalar, yəni peşəkar birliklər öz üzvləri arasında əməkdaşlıq və həmrəyliyi təşviq edərkən, qarşılıqlı yardım fondları da fövqəladə hallar zamanı üzvlərə maliyyə dəstəyi verirdi. Bundan əlavə, dini xeyriyyə qurumları cəmiyyətin yoxsul təbəqələrinə kömək etmək üçün böyük funksionallıq qazanmışdır. Dini inanclar yardımın göstərilməsində həvəsləndirici amil kimi meydana çıxdı; Bir çox dinlərdə xeyriyyəçilik və əməkdaşlığı təşviq edən təlimlər var idi. Bu kontekstdə yoxsullara kömək etmək həm mənəvi borc, həm də sosial məsuliyyət hesab olunurdu. Nəticədə sənayedən əvvəlki cəmiyyətlər sosial təminat sahəsində ailə, icma və dinə əsaslanan bir quruluş yaratmışdılar.

XVI əsrdən başlayaraq sosial yardım və sosial xidmətlər sahəsində ciddi dəyişikliklər baş vermişdir. Bu dövrdə dövlət tərəfindən qurulan qurumlar sosial əməkdaşlığı təşviq edirdi. Kimsəsizlərə və ehtiyacı olanlara yardım göstərmək üçün sosial komplekslər, xəstəxana və s. kimi strukturlar yaradıldı. Bundan əlavə, dövlətin sosial siyasətinə sosial ədalətin təmin edilməsi istiqamətində də səylər daxildir. Bu cür strukturlar sosial həmrəyliyi gücləndirməklə fərdlərin sosial təhlükəsizliyinin təmin edilməsinə kömək edirdi. Bu inkişaflar müasir sosial xidmətlərin əsaslarını qoydu və cəmiyyətlərin sosial strukturunda köklü dəyişikliklərə səbəb oldu.

Dövlət əvvəlcə iş qəzaları və peşə xəstəlikləri kimi risklərə görə işəgötürənləri məsuliyyət daşımağa çalışmış, daha sonra bütün risklərə qarşı bütün cəmiyyəti əhatə edəcək sosial təhlükəsizlik proqramları yaratmağa başlamışdır. Bütün cəmiyyəti əhatə edən sosial təminat proqramları tibbi sığorta, işsizlik sığortası və pensiya kimi müxtəlif sosial müavinətləri əhatə etməyə başladı. Bu dəyişiklik fərdlərin iqtisadi təhlükəsizliyini təmin etmək və sosial ədaləti artırmaq üçün həyata keçirilib. Sosial təhlükəsizlik sistemləri təkcə iş təhlükəsizliyini artırmaq deyil, həm də fərdlərin həyat keyfiyyətini artırmaq məqsədi daşıyan hərtərəfli bir qurulu-

şa çevrilmişdir. Bu proses müasir rifah dövlətinin təməl daşlarını təşkil etmiş və cəmiyyətin bütün təbəqələrinin sosial risklərdən qorunmasını təmin etmişdir.

1880-ci illərdə Almaniyada qurulan Bismarkın işə əsaslanan qazanc modeli sosial təhlükəsizliyə ilk strukturlaşdırılmış yanaşmalardan biri idi [1, s.2]. Bu, ilk növbədə işçi sinfini hədəf alan qazanc və töhfələrə əsaslanan fayda təmin etməyi hədəfləmişdir. Bu model məşğulluqla əlaqəli sosial sığortanı vurğulayaraq, bir çox Avropa ölkələri üçün zəmin yaratdı. Bunun əksinə olaraq, Danimarka 1891-ci ildə gəlir səviyyəsindən asılı olmayaraq daha ədalətli əhatə təmin etmək məqsədi daşıyan universal düz faizli model təqdim etdi. Bu sistem ümumbəşəri rifah öhdəliyini əks etdirən bütün vətəndaşlara əsas dəstəyi təklif edirdi. Hər iki model sənaye inqilabının sosial çağırışlarına cavab idi, lakin əhatə dairəsi və faydalar məsələsinə fərqli yanaşdı. Bismarkın modeli iqtisadi cəhətdən töhfə verə bilənlərə yönəldi, Danimarkanın yanaşması isə hər kəs üçün əsas dəstəyi təmin etməyə çalışırdı. Sonrakı onilliklərdə bir sıra Avropa ölkələri analoji sosial pensiya sxemləri yaratdılar: Britaniya Köhnə Pensiya Aktı (1908) və Sığorta Aktı (1911), İsveçin məcburi qocalıq pensiyası (1925) və İsveçrə Qanunu (1935) (Gordon, 1988). Britaniyada Beveric komitəsinin hesabatı (1942) tam məşğulluğu təmin edən və ictimai sosial müdafiə institutları vasitəsilə işləyən universal sosial təminat sistemini nəzərdə tuturdu. Alman modelindən fərqli olaraq, Anglo-Sakson sosial təminat modeli sabit dərəcə ilə fərqləndirici xüsusiyyətini qoruyub saxlamışdır [24, s.269-301].

Sosial təhlükəsizlik 1941-ci il avqustun 12-də Ruzvelt və Çörçil tərəfindən imzalanan "Atlantik Bəyannaməsi"nə də daxil edilmiş və bəşəriyyətin ən dərin və ən geniş istəklərini təsvir edən şüara çevrilmişdir. Bu vəziyyət İkinci Dünya Müharibəsinin yaratdığı sosial-iqtisadi problemlərin həlli məqsədilə Beynəlxalq Əmək Təşkilatının 10 may 1944-cü ildə Filadelfiyada keçirilən 26-cı iclasında konsepsiyanın tətbiqi sahəsi ilə bağlı bəzi tövsiyələrin verilməsinə səbəb oldu. Sosial təhlükəsizlik anlayışı 1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında qəbul edilmiş və dünya sosial siyasət qanunvericiliyində və praktikasında baş verən proseslərə öz təsirini göstərən "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nə geniş mənada daxil edilərək universal ölçülərə çatmışdır [2, s.42-43].

**Uşaqların sosial təhlükəsizliyi**

Uşaqlar cəmiyyətin ən həssas və müdafiəyə ehtiyacı olan üzvləridir. Onların sosial təhlükəsizliyinin təmin edilməsi, hüquqlarının qorunması və rifahının yüksəldilməsi hər bir cəmiyyətin əsas vəzifələrindən biri olmuşdur. Tarix boyu uşaqlara olan münasibət cəmiyyətlərin mədəni, dini və hüquqi sistemləri çərçivəsində fərqli formalarda özünü göstərmişdir. Qədim dövrlərdə uşaqların müdafiəsinə dair yazılı qaydalar məhdud olsa da, müxtəlif mədəniyyətlərdə onlara verilən dəyər və tətbiq olunan müdafiə mexanizmləri mövcud olmuşdur. Müasir dövrdə isə uşaqların sosial təhlükəsizliyinin təmin edilməsi dövlətlərin və beynəlxalq təşkilatların prioritet məsələlərindən birinə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyası (1989) bu sahədə qlobal səviyyədə ən mühüm hüquqi çərçivələrdən biridir. Buna baxmayaraq, dünyanın bir çox ölkəsində uşaqlar hələ də yoxsulluq, zorakılıq, istismar və digər sosial risklərlə üzləşməkdədirlər. Bu səbəbdən uşaqların sosial təhlükəsizliyinin təmin edilməsi üçün yalnız hüquqi tədbirlər deyil, eyni zamanda sosial siyasətlərin, təhsil proqramlarının və ailə institutu ilə bağlı islahatların həyata keçirilməsi vacibdir. Uşaq müdafiəsi sahəsində tarixi inkişafı və müasir yanaşmaları araşdırmaq, mövcud problemləri daha dərindən anlamağa və effektiv həll yolları təklif etməyə imkan verir.

Qədim Yunan və Roma mədəniyyətlərində uşaqların hüquqlarına daha konkret yanaşmalar formalaşmağa başlamışdır. Bu mədəniyyətlərdə yazılı qaydalar və sosial davranış normaları uşaqların tərbiyəsi və qorunması ilə bağlı sosial təhlükəsizliyin müəyyən səviyyədə təmin olunmasına zəmin yaratmışdır. Lakin uşaqlara münasibət hər bir cəmiyyətin mədəni və sosial strukturuna görə fərqlilik göstərmişdir. Bəzi cəmiyyətlərdə uşaqların tərbiyəsi və yetişdirilməsi üçün sərt qaydalar tətbiq edilmişdir. Bu qaydalar, uşaqların fiziki və psixoloji təhlükəsizliyi üçün həmişə əlverişli olmamışdır. Məsələn, Atina şəhər dövlətində uşaqların sosial təhlükəsizliyi və hüquqlarına dair hüquqi mexanizmlər demək olar ki, mövcud deyildi. Uşaqlar tamamilə atalarına məxsus hesab edilir, hüquqi və ya əxlaqi qaydalar vasitəsilə onların qorunması təmin olunmurdu. Aristotel uşaqlar və atalar arasında hüquqi əlaqənin mövcud ola bilməyəcəyini irəli sürərək qeyd etmişdir ki, hüquqlar yalnız bərabər və azad fərdlər arasında tətbiq edilə bilərdi [3, s.17]. Buna baxmayaraq, Qədim Yunan mədəniyyətində, xüsusilə yüksək təbəqəyə mənsub ailələrdə uşaqların tərbiyəsi və

təhsili ilə bağlı fərqli yanaşmalar mövcud idi. Bu yanaşmalar, uşaqların sosial təhlükəsizliyini təmin etmək məqsədilə müəyyən humanist dəyərlərə əsaslanırdı. Cəmiyyətin yüksək təbəqələrinə mənsub ailələr uşaqlarına erkən təhsil verməyə böyük önəm verirdilər. Bu təhsil yalnız müxtəlif sənətlərin tədrisi ilə kifayətlənməyib, həm də fiziki inkişaflarını dəstəkləmək üçün idman fəaliyyətlərini əhatə edirdi. Yunan cəmiyyətində bu təcrübələr, cəmiyyətin daha güclü və bilikli fərdlər yetişdirmə məqsədinin bir hissəsi idi. Hippokratın uşaqlıq dövrünü təsnif etməsi və bu dövrlərin əhəmiyyətini vurğulaması, uşaqların inkişafını daha yaxşı başa düşməyə və onların sosial təhlükəsizliyini təmin etməyə kömək etmişdir. O, uşaqlıq dövrünü infans (yeddi yaşına qədər), puer (on dörd yaşına qədər) və adolescens (gənclik dövrü) olaraq ayıraraq bu dövrlərin hər birinin uşaqların inkişafında əhəmiyyətini vurğulamışdır [6, s.10].

Qədim yunan mədəniyyətinin başqa bir şəhər dövləti olan Sparta uşaqların tərbiyəsi və sosial təhlükəsizliyi məsələsində daha sərt və dövlət tərəfindən daha sıx nəzarət edilən bir sistemə sahib idi. Yeni doğulan körpələr əvvəlcə sağlamlıq müayinəsindən keçirilir və yalnız sağlam hesab edilənlər yaşamağa layiq görülürdü. Sağlam körpələr yeddi yaşına qədər ailələri tərəfindən böyüdülür, daha sonra isə dövlətə təhvil verilirdi. Onlar hər cür çətin şəraitə uyğunlaşa biləcək şəkildə yetişdirilir, çılpaq halda sərt şəraitdə yatmağa və fiziki cəzalara dözməyə məcbur edilirdi. Bu metodlar uşaqların həm fiziki, həm də mənəvi baxımdan dözümlü fərdlər kimi formalaşmasına yönəlmişdi. Əsas məqsəd, dövlətin döyüşçü cəmiyyəti üçün güclü və bacarıqlı fərdlər yetişdirmək idi [21, s.252].

Romalıların uşaqlara yanaşması yalnız sərt qaydalarla məhdudlaşmırdı. Onlar qədim yunanlardan daha inkişaf etmiş və İntibah dövrünə qədər Qərb sənətində görünməyən qeyri-adi və mütərəqqi bir uşaqlıq anlayışı da formalaşdırmışdılar. Romalıların uşaqlıq anlayışını inkişaf etdirmək üçün uşaqlarla bağlı utanc və əxlaq düşüncəsini təbliğ etmələri bu sahədə ən mühüm töhfələrdən biri idi. Məsələn, Kvintilian öz dövründən çox irəlidə bir əxlaq düşüncəsi ortaya qoyaraq, böyüklərin Roma uşaqlarının qarşısında əxlaqa zidd ifadə və davranışlarının yolverilməz olduğunu bildirmişdi [18, s.20].

Bu yanaşmalar göstərir ki, uşaqların sosial mövqeyi və onlara olan münasibət mədəniyyətlərə görə fərqlənsə də, onların rifahının qorunması hər bir cəmiyyət üçün mühüm məsələ olmuşdur. Qədim türklərdə uşaq sahibi olmaq ailə dəyərlərinin qorunması baxımından son dərəcə vacib sayılırdı. Cəmiyyətdə övladı olmayan ailələr xoş qarşılanmaz, bu ailələr yetim uşaqları və ya valideyn icazəsi ilə başqa uşaqları övladlığa götürə bilirdi. Vəlayət, əsasən ata tərəfindən həyata keçirilirdi, lakin atanın yoxluğunda, ana da bu hüququ istifadə edə bilərdi. Bununla yanaşı, əski yunan və Roma cəmiyyətlərində olduğu kimi, atanın uşaqları üzərində sonsuz və mütləq vəlayət hüququndan bəhs edilə bilməzdi. Qədim türk cəmiyyətində oğlan uşaqlarını ifadə etmək üçün “ataç” (böyüklük göstərən uşaq, oğul) və qız uşaqlarını ifadə etmək üçün isə “anaç” (böyük anlayış göstərən qız, ana) sözləri istifadə olunurdu. Oğlan və qız uşaqları eyni dəyərə sahib idi [6, s.13]. Uşaqların bu cür dəstəklənməsi, onların sosial hüquqlarının qorunması və təhlükəsizliyinin təmin edilməsi, o dövrün ənənələrinin əsas prinsiplərindən birini təşkil edirdi.

Azərbaycanda uşaqların sosial təhlükəsizliyini təmin etmək məqsədilə həm dövlət, həm də cəmiyyət tərəfindən müxtəlif addımlar atılmışdır. Xeyriyyə təşkilatları və vəqflər vasitəsilə uşaqların təhsili və sosial təhlükəsizlik ehtiyacları qarşılanırdı. Elxani hökmdarı Qazan xanın dövründə Təbrizdə uşaqlar üçün xüsusi təlim mərkəzləri yaradılmış, burada həm dini, həm də sosial sahələrdə uşaqların təhsili təmin olunmuşdu. Bu məktəblər uşaqların yalnız təhsilini deyil, həm də onların sosial rifahını təmin edirdi, hər il onlara bayramlıq, geyim və digər ehtiyaclar da verilirdi [16, s.118].

Şirvanşahlar dövründə uşaqların təlim-tərbiyəsinə diqqət yetirilməklə yanaşı, onların mənəvi və əxlaqi inkişafına da xüsusi əhəmiyyət verilmişdi. Məsələn, həmin dövrdə hökmdar ailələri saraylarında elm və mədəniyyətə dair böyük tədbirlər keçirir, şairlər və alimlər vasitəsilə uşaqlarını intellektual və əxlaqi baxımdan inkişaf etdirmək üçün zəmin yaradırdılar [17, s.85].

Müasir dünyada uşaqların sosial təhlükəsizliyinin təmin olunması yalnız tarixi yanaşmalarla kifayətlənməyib, dövlətlərin qanunvericilik sistemində əsas prioritetlərdən birinə çevrilmişdir. Sosial təhlükəsizlik yalnız uşaqların zorakılıq, istismar və laqeydlikdən qorunmasını deyil, həm də onların sağlam inkişafı üçün lazım olan sosial, təhsil və iqtisadi şərtlərin təmin edilməsini əhatə edir. Uşaqların hüquqlarının qorunması və onların sosial təhlükəsizliyinin təmin edilməsi, cəmiyyətin sosial, mədəni və iqtisadi inkişafı ilə sıx əlaqəlidir. Uşaqlar fiziki və əqli cəhətdən yetkin olmadıqları üçün xüsusi

qayğıya və qorunmaya ehtiyac duyurlar. Bu, onların hüquqi statusunun mühüm tərkib hissəsidir və əksər ölkələrin qanunvericiliyində təsbit edilmişdir. Uşaqların hüquqi müdafiəsi məsələsi ilk dəfə ötən əsrin ortalarında – 1966-cı ildə, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt qəbul edildikdə qaldırılmışdır. Bu Paktın 24-cü maddəsi cəmiyyətin kiçik üzvləri olan bütün uşaqlar üçün xüsusi olaraq nəzərdə tutulmuşdur və onların müvafiq müdafiə tədbirlərinə olan hüquqlarını təmin edirdi. Bununla yanaşı, iqtisadi, sosial və mədəni hüquqlar haqqında daha bir pakt qəbul edilmişdir ki, burada "müstəqilliyi olmayan uşaqlara qayğı və onların tərbiyəsi" məsələsi daha ətraflı şəkildə araşdırılırdı. Lakin bu sənədlər uşaqların hüquqlarını yalnız ayrı-ayrı aspektlər üzrə nəzərdən keçirirdi. Tezliklə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası bir sıra beynəlxalq hüquqi aktları qəbul etdi: 1989-cu ildə Uşaq Hüquqları Konvensiyasını, 2000-ci ildə uşaqların silahlı münaqişələrdə iştirakını qadağan edən Protokolu, 2002-ci ildə isə uşaqların cinsi istismarı və alveri ilə mübarizəni gücləndirən Protokolu qəbul edərək, uşaqların hüquqlarını daha əhatəli və sistematik şəkildə müdafiə etməyə başladı. Bu beynəlxalq aktlar, dünya ölkələrinə uşaqların hüquqlarının qorunması və sosial təhlükəsizliyinin təmin edilməsi üçün konkret öhdəliklər verirdi.

### Nəticə

Kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial təhlükəsizliyinin təmin edilməsi qlobal səviyyədə mühüm sosial-siyasi məsələ olaraq qalmaqdadır. Fərqli ölkələrdə bu sahədə müxtəlif yanaşmalar tətbiq olunsa da, əsas məqsəd uşaqların hüquqlarını qorumaq, onların sağlam inkişafı və cəmiyyətə uğurlu inteqrasiyasını təmin etməkdir. Beynəlxalq təşkilatların, xüsusilə BMT-nin Uşaq Hüquqları Konvensiyası və digər beynəlxalq hüquqi sənədlər çərçivəsində müəyyən edilmiş prinsiplər, dövlətlər üçün önəmli rol oynayır.

Bəzi ölkələrdə alternativ qayğı modellərinin – övladlığa götürmə, himayədarlıq və ailə əsaslı sosial dəstək sistemlərinin inkişaf etdirilməsi ön plana çıxır. Digər tərəfdən, bəzi regionlarda kimsəsizlər üçün internat məktəbləri və sığınacaqlar əsas sosial müdafiə mexanizmi kimi fəaliyyət göstərir. Azərbaycanda olduğu kimi, bir çox dövlətlərdə qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatlar və sosial proqramların gücləndirilməsi bu sahədə əsas strategiyalar sırasındadır. Lakin mövcud tədbirlərə baxmayaraq, kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqların qarşılaşdığı sosial, psixoloji və iqtisadi çətinliklər hələ də tam həll olunmamış qalır. Bu baxımdan, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, sosial siyasətlərin daha çevik və inklüziv olması, uşaqların ailə mühitində böyüməsini təşviq edən modellərin inkişaf etdirilməsi vacibdir. Uşaqların sosial təhlükəsizliyinin təmin edilməsi yalnız dövlətlərin deyil, cəmiyyətin bütün üzvlərinin birgə məsuliyyəti kimi qəbul edilməli və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilməlidir.

**Açar sözlər:** *kimsəsiz uşaqlar, sosial təhlükəsizlik, uşaq hüquqları, dövlət siyasəti, uşaq müdafiə proqramları.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. A Brief History. The development of social security. 2005, 36 c. c.2*

*2. Abdurrahman Ayhan. Sosyal Güvenlik Kavramı ve Sosyal Güvenlik İlkeleri. // Sosyal Güvenlik dergisi, Ankara, 2012, cilt 1, sayı 1, s. 41-55*

*3. Akyüz Emine. Çocuk Hukuku çocukların hakları ve korunması. Ankara: Pegem Akademi. 2010, s. 16-17*

*4. "Azərbaycanda Uşaqlar" Statistik məcmuə., Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşri, 2020, s. 22*

*5. Cahit Evcil. Türk sosyal güvenlik sistemi, sistemin sorunları ve bu sorunlara çözüm önerileri. Yüksek lisans tezi, İstanbul, 1997, 134 s.*

*6. Çetin Serkan Uğur. Türkiye'de çocuk koruma politikaları: Sosyal ve ekonomik destek hizmetinin rolü. UzmanlIk tezi. Ankara. 2018, 103 s.*

*7. Dilik Sait. Sosyal Güvenlik, Ankara, 1991, s. 294*

*8. Emerging from the ashes of war: 1946–1979 (Retrieved 22 July 2024). https://www.unicef.org/stories/learning-experience-19461979*

*9. Əhməd Əsgər. Səfəvilər Dövründə Məktəblər. // Akademik Tarih ve Düşünce Dergisi. 2022? C. 9, S. 3, s.688-710.*

*10. Gordon, S. M. Social Security Policies in Industrial Countries: A Comparative Analysis. Cambridge, UK: Cambridge University Press. 1988*

*11. History of child rights (Retrieved 22 July 2024).*

*12. İnan, A. N. Çocuk Hakları Beyannamesi İlkelerinin Türk Hukuk Sistemine Etkisi. Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi, 1968, 1(1), 201-219.*

13. *Kale, N. Çocuk ve ceza olgusuna felsefi bir yorum. // Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi, 1995, s. 49-58.*

14. *Nəcəf Ə. Orta əsrlər Azərbaycanında təhsil anlayışı, strukturu, metodologiyası və tədris vasitələri (X-XVI əsrlər). // Azərbaycan məktəbi. 2018, № 2 (683), s. 107–123*

15. *Özbay, Y., Kandemir, M., Kuyumcu, B., Eşici, H., Kaşkaya, A., Büyüköztürk, Ş., & Taylan, H. Kurum bakım türlerinin etki analizi. Ankara: Aile ve Sosyal Politikalar Bakanlığı ve Gazi Üniversitesi. 2013, s.13*

16. *Postman, N. Çocukluğun yokoluşu. (K. İnal, Çev.) Ankara: İmge Kitabevi. 1995, s. 208*

17. *Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı. 2006. s. 650*

18. *Strengthening the Convention on the Rights of the Child: Optional Protocols (Retrieved 22 July 2024).*

19. *Şakar Müjdat. Sosyal Sigortalar Uygulaması, İstanbul, 1994, 410 s.*

20. *Talas Cahit. Sosyal Ekonomi, 6. Baskı, Ankara. 1983, s 323*

21. *Topal, Ş. Korunmaya muhtaç çocukların bakımı ve gözetimi açısından İslam Hukukunda velayet ve vesayet yetkisi. // Din Bilimleri Akademik Araştırma Dergisi, 2006, 6(2), 249-273.*

22. *Tufan Şentuna. Çocuk yoksulluğunu azaltmaya yönelik politikalar: Türkiye'nin sosyal yardım politikasında çocuklar. Yüksek lisans tezi. İstanbul, 2019, 128 s.*

23. *Tunçomağ Kenan. Sosyal Güvenlik Kavramı ve Sosyal Sigortalar, 3. Baskı, İstanbul. 1987, s. 5*

24. *Veit-Wilson, J. Muddle or Mendacity? The Beveridge Committee and the Poverty Line. Journal of Social Policy, 1992, 21(3), 269-301.*

25. *Yörükoğlu, A. Değişen toplumda aile ve çocuk. İstanbul: Özgür Yayın Dağıtım. 1992, s. 22*

## FEATURES OF SOCIAL SECURITY OF ORPHANS AND CHILDREN DEPRIVED OF PARENTAL CARE

**Summary**

Protection of children's rights, especially ensuring the social security of orphans and children deprived of parental care, is one of the most important issues of modern society. This article systematically analyzes the social security of children, the protection of their rights and the measures taken in this area. First of all, the essence and historical development of the concept of social security are examined, then attention is paid to the legal and social measures taken to ensure the social security of children. The study gives extensive space to international and local experiences on the social security of orphans and children deprived of parental care. It also emphasizes the importance of the activities of state and non-governmental organizations for the growth of children in safe conditions and their integration into society.

**Keywords:** *orphans, social security, children's rights, state policy, child protection programs.*

## ОСОБЕННОСТИ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ДЕТЕЙ-СИРОТ И ДЕТЕЙ, ОСТАВШИХСЯ БЕЗ ПОПЕЧЕНИЯ РОДИТЕЛЕЙ

**Резюме**

Защита прав детей, особенно обеспечение социальной защищенности детей-сирот и детей, оставшихся без попечения родителей, является одной из важнейших проблем современного общества. В статье системно анализируется социальное обеспечение детей, защита их прав и меры, принимаемые в этой области. В первую очередь рассматриваются сущность и историческое развитие понятия социального обеспечения, а затем уделяется внимание правовым и социальным мерам, принимаемым для обеспечения социальной защищенности детей. В исследовании подробно рассматривается международный и местный опыт социальной защиты детей-сирот и детей, оставшихся без попечения родителей. В нем также подчеркивается важность деятельности государственных и неправительственных организаций для безопасного развития детей и их интеграции в общество.

**Ключевые слова:** *дети без сопровождения взрослых, социальное обеспечение, права детей, государственная политика, программы защиты детей.*